Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası

# Azərbaycan ədəbiyyatında fantastika janrının görkəmli nümayəndəsi

**Azərbaycan elmi-fantastik ədəbiyyatının görkəmli nümayəndəsi Emin Mahmudovun 91 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2016**

**Tərtibçi:** **Təranə Hacıyeva**

**İxtisas redaktoru:** **Şəhla Qəmbərova**
**və buraxılışa məsul:** Əməkdar Mədəniyyət İşçisi

**Azərbaycan ədəbiyyatında fantastika janrının görkəmli nümayəndəsi:** metodik vəsait / tərt. ed. T.Hacıyeva; ix. red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. - Bakı. - 2016. - 19 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

# Tərtibçidən:



Azərbaycan ədəbiyyatında elmi-fantastika janrı gənc janrdır və bu üslubda yazan yazıçıların sayı da çox deyil. Belə yazıçılardan biri də Emin Mahmudovdur. Emin Mahmudov yalnız yazıçılıq fəaliyyəti ilə məşğul olmamış, həm də tərcüməçi, jurnalist, publisist, redaktor kimi tanınmışdır.

Elmi-fantastika janrında yazılmış ədəbiyyat həm dəqiq, həm təbiət elmləri, həm də humanitar elmlər sahəsində fantastik ideyalara, fikirlərə, bəzən də spekulyasiyalara əsaslanır. Elmi fantastika təxəyyül məhsulu olan texnologiyaları və elmi kəşfləri, insana məxsus olmayan şüurla əlaqəni, mümkün gələcəyi və tarixin alternativ inkişafının gedişatını, həmçinin bütün bunların insan cəmiyyətinə və şəxsiyyətinə təsirini təsvir edir. Bu janrda yazılmış əsərlərdə hadisələr adətən gələcəkdə baş verir.

Bu janrın meydana çıxması XIX əsrdəki sənaye inqilabı ilə bağlıdır. İlk əvvəllər elmi-fantastika elm və texnikanın, onların inkişaf perspektivlərini təsvir edən elmi janr kimi yaranmışdır. Bu dövrdə gələcək daha çox utopiya şəklində təsvir olunurdu. Bu cür ədəbiyyatın tipik nümayəndələri Jül Vern və Herbert Uellsdir. Zaman keçdikcə bu janrada Rey Bredberi, Ayzek Azimov, Robert Haynlayn, Artur Klark, Nelson Bond və s. kimi məşhur yazıçılar yazmışlar.

Azərbaycan ədəbiyyatında elmi-fantastik janrın ilk nümunəsi Yusif Vəzir Çəmənzəminlinin 1933-cü ildə yazdığı “Gələcək şəhər” hekayəsidir. Sonrakı illərdə Namiq Abdullayev (“Sehrli oğlan”, “Balaca kiberin macəraları”, “Gecələr uzanaydı”, “Piyada vəzirə çevrilir” və s.) və Emin Mahmudov fantastik janrda yazılan əsərlərin müəllifləridir. Sonralar Azərbaycan Yazıçılar Birliyinin sədri Anar da “Əlaqə” povesti ilə bu janrda öz töhfəsini vermişdir.

Azərbaycanda elmi-fantastika janrının azsaylı nümayəndələrindən biri olan Emin Mahmudov bu sahədə yazan ilk yazarlarımızdan biri olduğu üçün müəyyən çətinliklərlə qarşılaşmışdır. Lakin rus və dünya elmi-fantastik janrının ən gözəl nümunələrini mütaliə etməsi, elm və texnikanın nailiyyətləri ilə yaxından tanış olması gənc yazıçıya çox kömək etmişdir. Yaradıcılığa uşaqlar üçün hekayələrlə başlayan E.Mahmudov zaman keçdikcə daha iri həcmli əsərlər yazmağa başlamışdır. Yaziçi elmi-fantastika janrında povestlərin və çox sayda hekayələrin müəllifidir.

Görkəmli yazıçımızın əsərləri əsasən uşaq və yeniyetmələrə ünvanlandığı üçün, bu əsərlərin xüsusilə uşaq kitabxanalarında təbliğinə böyük ehtiyac var. Bu məqsədlə yazılmış vəsaitimiz iki hissədən ibarətdir. I hissədə yazıçının həyat və fəaliyyəti haqqında məlumat verilir, II hissədə isə yazıçıya həsr olunmuş tədbirlərin keçirilməsindən bəhs edilir.

## Həyatı və yaradıcılığı

Azərbaycan ədəbiyyatında elmi-fantastika janrının görkəmli nümayəndəsi, nasir, publisist, tərcüməçi Emin Qasıməli oğlu Mahmudov 1925-ci il yanvarın 1-də Göyçay şəhərində anadan olmuşdur. Burada orta təhsil almış, 1943-1945-ci illərdə orduda xidmət etmişdir. Ordudan tərxis edildikdən sonra ADU-nun (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. 1945-1950-ci illərdə orada təhsil almışdır. 1948-ci ildən başlayaraq müxtəlif vəzifələrdə işləmişdir: Baş Mətbuat idarəsində senzor (1948-1952), “Azərbaycan qadını” jurnalı redaksiyasında məsul katib (1955-1966), “Azərbaycan pioneri” qəzeti redaksiyasında məsul katib (1967-1971), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor (1973-1982) vəzifələrində işləmişdir.

Emin Mahmudov ömrünün son illərini Amerika Birləşmiş Ştatlarında yaşamış və 2009-cu ildə orada da vəfat etmişdir.

Emin Mahmudovun “RT-1” adlı ilk elmi-fantastik hekayəsi 1952-ci ildə “Pioner” jurnalında dərc edilmişdir. “Günəş şəhəri” adlı ilk elmi-fantastik hekayələr toplusu 1953-cü, “Muğanda qütb parıltısı” adlı hekayələr toplusu isə 1954-cü ildə çapdan çıxmışdır.

Emin Mahmudov elmi-fantastika janrında “Kainat gəmisi”, “Veneranın göyləri od içindədir”, “Zülmət dənizi”, “Atlant qızı” və s. povestlərin, çox sayda hekayələrin müəllifidir.

Emin Mahmudov publisist, jurnalist və tərcüməçi kimi də fəaliyyət göstərmişdir. Onun elmi-kütləvi, yumoristik, satirik məqalələri, kiçik hekayə və miniatürləri dövrü mətbuatda dərc olunmuşdur. Yazıçı bir çox Azərbaycan müəlliflərinin əsərlərini rus dilinə, çox sayda xarici müəlliflərin əsərlərini isə doğma dilimizə tərcümə etmişdir.

Bu görkəmli nasirimizin yaradıcılığının təbliğ olunması, əsərlərinin gələcəyimiz olan uşaqlara, gənclərə tanıdılmasına çox böyük ehtiyac var. Bu məqsədlə uşaq kitabxanalarında, məktəb, lisey və gimnaziyalarda Emin Mahmudovla bağlı tədbirlərin keçirilməsi məqsədəuyğundur. Kitabxanada ilk öncə yazıçı haqqında sərgi hazırlamaq olar. Sərgi aşağıdakı başlıqlar altında keçirilə bilər: “Azərbaycan elmi-fantastik ədəbiyyatının görkəmli nümayəndəsi Emin Mahmudov”, “Ulduzları bizə yaxınlaşdıran yazıçı”, “Emin Mahmudov - fantastikanın reallığa çevriləcəyinə inanan yazıçı”, “Emin Mahmudovla xəyalla həqiqətin sərhədində”, “İnsan ağlının və fantaziyasının hüdudsuzluğuna inanan yazıçı - Emin Mahmudov”, “Xatirələrdə qalan yazıçı Emin Mahmudov” və s.

Sərgidə:

Başlıq;

E.Mahmudovun kitablarının nümayişi;

Emin Mahmudov haqqında görkəmli şəxsiyyətlərin söylədikləri fikirlər;

Kitablarının və dövrü mətbuatda dərc olunan yazılarının biblioqrafiyası.























Kitabxanalarda yazıçının yubileyi ilə əlaqədar həyat və yaradıcılığına həsr olunmuş gecə keçirmək olar. Bu tədbirin keçirilməsi üçün yazıçı və şairlər, ədəbiyyatşünaslar, müəllimlər, oxucular kitabxanaya dəvət olunur. Tədbirin keçiriləcəyi zal öncədən yazıçının şəkli və kitablarından ibarət sərgi ilə bəzədilir. Hər kəs yerini tutduqdan sonra Emin Mahmudovun həyatına və fəaliyyətinə həsr olunmuş slayd nümayiş olunur. Daha sonra aparıcılar səhnəyə dəvət olunur.

**I Aparıcı:** Hörmətli tədbir iştirakçıları, əziz qonaqlar! Görkəmli fantast-yazıçı, publisist, tərcüməçi Emin Mahmudova həsr olunmuş bugünkü tədbirimizə xoş gəlmisiniz. Əminliklə deyə bilərik ki, Azərbaycanda fantastika janrında ədəbiyyatın yaranması və inkişafında Emin Mahmudovun çox böyük xidmətiləri olmuşdur.

**II Aparıcı:** Azərbaycan ədəbiyyatında elmi-fantastika janrında üç görkəmli yazıçının adı xüsusi qeyd olunmalıdır. Bunlar Namiq Abdullayev, Əhməd Xaspoladov və Emin Mahmudovdur.

Azərbaycan ədəbiyyatında fantastika janrının görkəmli nümayəndələrindən biri olan Emin Qasıməli oğlu Mahmudov 1925-ci il yanvarın 1-də Göyçay şəhərində anadan olmuşdur. Buradakı 1 saylı orta məktəbi bitirdikdən sonra uşaq evində tərbiyəçi işləmiş, 1943-1945-ci illərdə orduda xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra 1945-ci ildə ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olmuşdur. 1950-ci ildə təhsilini başa vurmuş və əmək fəaliyyətinə başlamışdır.

Emin Mahmudov müxtəlif vəzifələrdə - Baş mətbuat idarəsində senzor, "Azərbaycan Qadını" jurnalı redaksiyasında ədəbi işçi, "Azərbaycan pioneri" qəzeti redaksiyasında məsul katib, Azərbaycan Televiziya və Radio Verlişləri Şirkətində böyük redaktor işləmişdir.

1992-ci ildə Amerika Birləşmiş Ştatlarına mühacirət edən Emin Mahmudov ömrünün son illərini Amerika Birləşmiş Ştatlarında, Los-Anceles şəhərində yaşamış və 2009-cu ildə orada vəfat etmişdir.

**I Aparıcı:** Bədii ədəbiyyatın janrlarından biri olan elmi-fantastika nisbətən cavan janrdır. Elmi-fantastik ədəbiyyatla bağlı tənqidçilər və ədəbiyyatşünaslar arasında bir sıra mübahisələr mövcuddur. Lakin onların əksəriyyəti eyni fikirdə birləşirlər: elmi-fantastik ədəbiyyat elm sahəsində müəyyən fərziyyələrə, ehtimallara imkan verir. Bunlar, yeni icadların meydana gəlməsi, təbiətin yeni qanunlarırın "aşkar edilməsi", hətta sosial fantastikada olduğu kimi, bəzən cəmiyyətin yeni modellərinin qurulması ola bilər. İlk vaxtlar "elmi-fantastika" termini gələcəyin elmi kəşfləri haqqında məlumat verən əsərlərə aid edilirdi. Lakin zaman keçdikcə bu janrın tematik diapazonu çox genişlənmişdir. Artıq müasir elmi-fantastik əsərlər diqqət mərkəzinə yalnız elmi qoymur, həm də sosial fantastikanı əhatə edir. Elmi problemlər həm də ictimai-əxlaqi problemlərlə yanaşı verilir. Təsadüfi deyildir ki, elmi-fantastika janrında yazılmış ədəbiyyat həm də "intellektual ədəbiyyat" adlanır.

**II Aparıcı:** Azərbaycan ədəbiyyatında elmi-fantastika janrı XX əsrin ortalarında təşəkkül tapmağa başlamışdır. Heç bir ədəbi ənənəyə, bünövrəyə əsaslanmadığı üçün bu janrda yazmaq da çətin və eyni zamanda çox məsuliyyətli bir addım olmuşdur. Lakin bu çətinliklər gənc Emin Mahmudovu çəkindirməmişdir. O, dünya və rus ədəbiyyatında elmi-fantastika üslubunda yazılmış bir çox məşhur əsərləri oxumuş, öyrənmişdir. Elmin qabaqcıl nailiyyətlərini də mənimsəyən Emin Mahmudov artıq müəyyən hazırlığa malik olaraq yaradıcılığa başlamışdır.

**I Aparıcı:** Bədii yaradıcılığa 1952-ci ildən başlayan Emin Mahmudov ilk qələm təcrübəsi olan "RT-1" adlı hekayəsini "Pioner" jurnalında dərc etdirmişdir. 1953-1954-cü illərdə yazıçının "Günəş şəhəri" və "Muğanda qütb parıltısı" adlı elmi-fantastik hekayələrdən ibarət ilk kitabları işıq üzü görmüşdür. Yazıçının əsərləri ədəbi ictimaiyyətə təqdim olunduğu ilk vaxtlardan fikir təzəliyi, orijinallığı, mövzuları ilə diqqəti cəlb etmişdir. Bu hekayələrdə uydurma, yalançı fantaziya yoxdur, müəllif bugün üçün xəyal olsa da, gələcəkdə həqiqətə çevriləcək

hadisələrdən yazır. O, elmin qüdrətini, kimya, fizika, astronomiya kimi bilavasitə texnika ilə bağlı elmlərin perspektivlərini göstərməyə çalışır.

**II Aparıcı:** Emin Mahmudovun əsərlərindəki fantaziya real həqiqətə bağlı olan, varlıqdan qida alan yaradıcı xəyaldır. Bu xəyal uydurma, passiv utopiya deyildir. Onun təsvir etdiyi insanlar əməli və düşüncəsi etibarilə canlı, real obrazlardır. Bu hekayələri oxuyarkən hiss olunur ki, müəllif qələmə aldığı mövzunu hərtərəfli öyrənmiş, məsələnin həm elmi mənasını, həm də bədii əhəmiyyətini düzgün izah etməyə nail olmuşdur.

Emin Mahmudovun əsərləri bədii forma cəhətdən də yeni və diqqətəlayiq xüsusiyyətlərə malikdir. O, həyatın özünü göstərməyə, həqiqəti deməyə çalışırdı. Bu əsərlərdə möhkəm süjet xətti, hadisələrin inkişafında məntiqi ardıcıllıq hiss olunur.

Yazıçının dili, təsvir vasitələri, obrazı təbii halında göstərmək bacarığı, təbiət hadisələrini canlı cizgilərlə vermək məharəti onun əsərlərini daha da oxunaqlı edir.

**I Aparıcı:** Emin Mahmudov elmi-fantastika janrında çox məhsuldar yazıçı olmuşdur. Onun bir-birinin ardınca "Kainat gəmisi", "Veneranın göyləri od içindədir", "Qeyb olmuş səslər", "Dəmir necə ayaq açdı", "Zülmət dənizi", "Ulduzlar yolumuzu gözləyir", "Qüdrətli pillə", "Günün nəfəsi", "Atlant qızı" kitabları nəşr olunmuşdur. Bu kitablardakı povest və hekayələr fantastik-elmi təcrübələr haqqında yazılmış ən gözəl nümunələrdir.

**II Aparıcı:** Emin Mahmudov elmi-fantastika janrında yazdığı əsərlərlə yanaşı, bir sıra publisistik yazıların, dövrü mətbuatda dərc olunan çox sayda satirik, yumoristik, elmi-kütləvi məqalələrin, hekayələrin, miniatürlərin də müəllifidir.

Yazıçının tərcüməçilik fəaliyyəti də çox diqqətəlayiqdir. Belə ki, o, bir çox xarici müəlliflərin əsərlərini dilimizə, eyni zamanda Azərbaycan müəlliflərinin əsərlərini rus dilinə tərcümə etmişdir.

**I Aparıcı:** Elmi-fantastika janrında yazılmış əsərlər uşaqlarda və gənclərdə fantaziyanın genişlənməsinə, təxəyyülün inkişafına böyük təsir göstərir. Elmi-fantastik üslubda yazılmış əsərləri

mütaliə edən uşaqlar fizika, astronomiya və s. elmlərə, texnikaya maraq göstərirlər. Məhz buna görə də Azərbaycanda elmi-fantastika janrında əsərlər qələmə almış azsaylı yazıçılardan biri olan Emin Mahmudovun yaradıcılığının diqqətdə saxlanmasına, əsərlərinin yenidən, latın qrafikası ilə nəşr olunmasına ehtiyac vardır.

Emin Mahmudov, Namiq Abdullayev və Xaspolad Əhmədovla birgə Azərbaycan elmi-fantastika ədəbiyyatının sütunlarını təşkil edirlər. Hər üç yazıçı bu janrda çox maraqlı, bənzərsiz əsərlərin müəllifidirlər. Çox sevindirici haldır ki, Azərbaycanda bugün də fantastika janrında yazan yazıçılarımız var. Belə yazıçılarımızdan biri də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının yaxın dostu Reyhan Yusifqızı-Şıxlinskayadır. Reyhan Yusifqızı 1995-ci ildən bədii yaradıcılıqla məşğuldur və onun ilk iri həcmli əsəri – "Yaşıl gözlü qız" elmi-fantastik povesti 2009-cu ildə Türkiyədə keçirilmiş uşaq kitabları yarışmasında laureat olub və Ankarada türk dilində çap edilib.

Bu janrda yazan daha bir yazar sistemli şəkildə bu işlə məşğul olan Vüsal Nurudur. Yazıçı bu janrda beş roman, müxtəlif hekayələr çap etdirmişdir. Nə yaxşı ki, ədəbiyyatımızda bu janr unudulmamışdır. Emin Mahmudov, Namiq Abdullayev kimi görkəmli yazıçılarımızın əsasını qoyduğu Azərbaycan elmi-fantastik ədəbiyyatında yeni və maraqlı əsərlər yaranıb və yaranmaqda davam edir.

**II Aparıcı:** Görkəmli yazıçımız Emin Mahmudovun əsərləri hər zaman aktual, maraqlı və oxunaqlıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanası da Emin Mahmudov və onun əsərlərinin unudulmaması, uşaqlar və gənclər arasında təbliğ olunması üçün əlindən gələni edir.

Hər kəsi Emin Mahmudovun yaradıcılığı ilə yaxından tanış olmağa, əsərlərini oxumağa çağırırıq!

*Tədbirin sonunda məktəblilərin ifasında Emin Mahmudovun "Kainat gəmisi" fantastik povestindən bir səhnəcik təqdim oluna bilər.*

## “Planetlərarası səyahət” adlı səhnəcik

**İştirak edirlər:**
Gəray – fizik
Firuzə - Gərayın həyat yoldaşı
Teymur – həkim
Prof. Konovalov – layihənin rəhbəri
Zerkalov – qütb tədqiqatçısı
Roqov – şturman
Prof. Qarayev – Gərayın müəllimi
Gərayın dostları – 3 nəfər

### I Hissə

*Bakıda bir mənzil. Firuzə fikirli halda paltar ütüləyir. Gəray əl-üzünü yuyur. Çarpayıda bir qız uşağı yatıb. Firuzə paltar ütüləməyi bitirib stola yemək düzür. Gəray otağa daxil olub deyir:*

-Firuzə, bəsdir, bu qədər narahat olma. Müharibəyə-zada getmirəm ki.

Firuzə:

- Kaş ki, müharibəyə getmiş olaydın. Heç olmazsa, oradan məktubun gələrdi. Amma indi heç bilmirəm ki, hara gedirsən.

Gəray yemək stoluna oturub yeməyə başlayır və gülərək deyir:

- Ay canım, məktub nədir. Mən hər gün radio ilə danışacağam. Dünyanın hər yerində bizdən yazacaq, bizdən bəhs edəcəklər. Qəzetləri açan kimi görəcəksən ki, bizdən yazılıb.

Firuzə:

- Mənə şöhrətin lazım deyi. Gəray, sən iki il bizdən ayrı düşəcəksən. Bəlkə başına nəsə gəldi. Mən bir yana, Gülnaz atası üçün çox darıxacaq (Firuzənin səsi titrəyir, gözləri dolur. Gəray əlini uzadıb Firuzənin saçını sığallayır).

Gəray:

- Sənin, Gülnazın sevginiz məni hər yerdə, Ayda da, Marsda da qoruyacaq. İki il nədir ki? Gülnaz məktəbə gedəndə mən artıq evdə olacağam.

*(Qapı döyülür. Prof. Qarayev və Gərayın üç dostu otağa daxil olurlar. Firuzə və Gərayla salamlaşır və üzlərini Gəraya tutub deyirlər).*

- Gəray, hazırsan? (Dostları onunla müxtəlif gülməli zarafatlar edirlər).
- Bizi unutma ha, məktub yaz.
- Aydan bizə teleqram vur (Hamı gülüşür. Firuzə isə qayğılı halda kənarda dayanıb onları seyr edir). Prof. Qarayev cibindən bir saat çıxarıb Gəraya uzadır:
- Gəray, sən mənim ən sevimli, ən bacarıqlı tələbəmsən. Bu saatı sənə bağışlayıram. O, mənə atamdan qalıb. İki il az müddət deyil, bilmək olmaz, bir də görüşə biləcəyikmi?

Gəray ehtiramla saatı alır və deyir:

- Professor, çox sağ olun. Bu, mənim üçün çox böyük şərəfdir. Elə deməyin, sizin 100 illiyinizi qeyd etmək hələ bizə nəsib olacaq.

Firuzə:

- Bəlkə çay içəsizniz?

Prof. :

- Çox sağ ol, qızım. Biz artıq tələsək, təyyarəyə gecikməyək.

Dost:

- Gəray, biz çantaları maşına aparaq, sən də gələrsən (Prof. və dostları Firuzə ilə sağollaşıb çıxırlar. Firuzə və Gəray üz-üzə dayanıb bir müddət susurlar. Firuzə səssizcə ağlayır.).

Gəray:

- Firuzə, axı niyə ağlayırsan? İki il nədir ki, tez gəlib keçəcək.

Firuzə:

- Çox narahat oluram, Gəray, axı heç bilmirəm sən hara gedirsən? İndiyəcən Moskvadan uzağa getməmisən. İndi isə Aya, Marsa uçursan.

Gəray:

- Firuzə, heç narahat olma. Hər şey yaxşı olacaq.

*( Sonra Gəray çarpayıda yatan Gülnaza yaxınlaşıb onun yanağından öpür və qapıya yönəlir. O, Firuzə ilə sağollaşır və Firuzə onun arxasınca su atır).*

## II HİSSƏ:

*(Kabinet. Yaşlı bir kişi stolun arxasında oturub sənədlərə baxır. Bu vaxt Gəray və daha üç nəfər otağa daxil olur. Kişi ayağa durub onlarla əl tutur. Onlar onunla salamlaşırlar).*

- Salam, prof. Konovalov.

Prof. Konovalov:

- Salam, dostlar. Mən öncə sizləri bir-birinizə təqdim etməliyəm. (O, öncə Gərayı təqdim edir):
- Bu cavan oğlan Gəray İbrahimovdur. Fizik, alpinist, idmançı.
- Bu, Nikolay Zerkalovdur. Qütb tədqiqatçısı, elmlər doktoru.
- Bu, İqor Roqovdur. Gəminin şturmanı.
- Bu isə Teymur Əsədov, tibb elmləri namizədi. *(Onların hamısı bir-biri ilə əl tutub görüşürlər).*

Prof. Konovalov:

- Planetlərarası gəmidə uçmaq üçün sizin dördünüz seçilmisiniz. Səfəriniz öncə Aya, sonra isə Marsadır. Bu işin nə qədər məsuliyyətli olduğunu anladığınıza şübhə etmirəm. Bir-birinizlə yaxından tanış olun. Siz dördlükdə iki il müddətində hava gəmisi ilə uçub başqa planetlərə gedəcəksiniz. Səyahətdən sağ-salamat döndükdən sonra yəqin ki, ömrünüzün sonuna kimi ən yaxın dostlar olacaqsınız. Dünyanı gəzib dolaşacaq, başqa

planetlərdə gördüklərinizdən danışacaqsınız. İndi isə kosmik gəmi sizləri gözləyir. “Kainat gəmisi” ilə səyahətiniz uğurlu olsun!

*(Sonda astronavtlar kosmik gəmiyə minirlər).*

Kitabxanada oxucular arasında sual-cavab gecəsinin də keçirilməsi məqsədəuyğundur. Belə tədbirdə kitabxanaçı və orta və yuxarı sinif şagirdləri iştirak edə bilər. Kitabxanaçı məktəblilərlə fantastika janrı ilə bağlı sual-cavab edir.

**Kitabxanaçı:** Uşaqlar, ədəbiyyatın janrlarından biri də fantastikadır. Bu janr haqqında eşitmisinizmi?

**I Oxucu:** Bəli, mən bu janrda yazılan ədəbiyyatı çox sevirəm.

**Kitabxanaçı:** Bu janr haqqında nə bilirsiniz? Bu üslubda yazılan əsərləri başqa ədəbiyyat janrlarında yazılmış əsərlədən fərqləndirən hansı cəhətlərdir?

**II Oxucu:** Bu üslubda yazılmış əsərlərdə yazıçı öz təxəyyülü əsasında bizə qeyri-adi cihazlar, başqa planetlərə səyahət, gələcəkdə ola biləcək texnoloji yeniliklər və s. haqqında danışır.

**Kitabxanaçı:**Fantastika janrında yazmış yazıçılardan kimləri tanıyırsınız?

**I Oxucu:** Jül Vern, Con Tolkin, Stanislav Lem, Rey Bredberi, Nil Stivenson..

**II Oxucu:** Coan Roulinq, Kir Bulıçev, Kurt Vonnequt, Alksandr Belyayev, Edqar Alan Po və s.

**Kitabxanaçı:** Bəs azərbaycanlı fantastika ədəbiyyatı ustalarından kimləri tanıyırsınız?

**I Oxucu:** Emin Mahmudov, Namiq Abdullayev, Reyhan Yusifqızı.

**Kitabxanaçı:** Bu yazıçıların hansı əsərlərini oxumusuz?

**I Oxucu:** Mən Emin Mahmudovun “Atlant qızı”, “Kainat gəmisi”, “Veneranın göyləri od içindədir”, Namiq Abdullayevin “Balaca kiberin macəraları” əsərlərini oxumuşam.

**II Oxucu:** Mən xalq yazıçısı Anarın “Əlaqə” povestini oxumuşam və bu əsər əsasında çəkilmiş filmə baxmışam. Reyhan Yusifqızının” “Yaşıl gözlü qız” əsərini də oxumuşam.

**I Oxucu:** Vüsal Nuru adlı bir yazıçımızın “Eybəcərlər adası”, “Yağış damlasıyam”, “999” adlı əsərlərini oxumuşam. Bu əsərlər əsasən qotik üslubda yazılmışdır.

**Kitabxanaçı:** Bəs siz fantast-yazıçı olsaydınız hansı mövzuları əhatə edərdiniz?

**II Oxucu:** Mən naməlum planetlər, qeyri-adi cihazlar, gələcəyə aid əsərlər yazardım.

**I Oxucu:** Mən daha çox psixoloji, sosial fantastikanı çox xoşladığım üçün bu üslubda utopik əsərləri çox sevirəm..

*Kitabxanalarda yazıçının əsərlərinin mövzuları üzrə rəsm sərgisi təşkil etmək olar. Məsələn, bu rəsmləri onun hər hansı bir əsəri üzrə təşkil etmək olar. Sərgi üçün yazıçınnı “Atlant*









*qızı”fantastik povesti üzrə rəsm nümunələrini təqdim edirik:*

Kitabxanada həmçinin uşaqlar arasında Emin Mahmudovun əsərləri əsasında rəsm müsabiqəsi təşkil etmək olar. Müsabiqənin keçiriləcəyi haqqında öncədən məlumat verilir. Belə məlumat

kitabxanaın saytında, Facebook səhifəsində elan şəklində verilə, həmçinin kitabxananın giriş qapısına vurula bilər. Məlumatda oxuculara yazıçının əsərləri, kitabları haqqında məlumat da verilir ki, bu əsərləri oxumayanlar da oxusunlar. Sərgiyə təqdim olunmuş əsərlər kitabxananın zalında sərgilənir. Rəssam və sənətşünaslardan ibarət münsiflər heyəti ən yaxşı əsərləri seçirlər. Sonda qaliblər kitabxananın rəhbərliyi tərəfindən rəmzi şəkildə mükafatlandırılır.

## İstifadə olunmuş ədəbiyyat:

1. Əlamədar və tarixi günlər təqvimi - 2015
2. Mahmudov, E. Kainat gəmisi: elmi-fantastik povest. - B.: Uşaqgəncnəşr, 1957. - 189 s.
3. Mahmudov, E. Ulduzlar yolumuzu gözləyir: elmi-kütləvi hekayələr. - B.: Gənclik, 1975. - 93 s.
4. Mahmudov, E. Atlant qızı: Povest və hekayələr. - B.:Gənclik, 1987. - 230 s.

Haqqında:

5. Oruc, M. Amerikadan telefon zəngləri: Səksən beşi haqlamış dostum Emin Mahmudova / Məmməd Oruc // Ədəbiyyat qəzeti. - 2009. - 17 aprel. - S. 8.

## Rus dilində:

6. Махмудов Эмин Касымали оглы / Энциклопедия фантастики: Кто есть кто // Под ред. Вл. Гакова. - Минск: ИКО «Галаксиас», 1995. - 694 с

**Azərbaycan ədəbiyyatında fantastika janrının görkəmli nümayəndəsi**

**(**metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** **Təranə Hacıyeva**

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 08
Çapa imzalanmışdır:05.06.2016
Tirajı:100
Pulsuz.